**2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 noyabr 2015-ci il tarixli 123 saylı müraciət üzrə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

# Q Ə R A R I

2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 35 saylı Xətai üçüncü seçki dairəsindən deputatlığa namizədliyi Ümid Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış Ağa-zadə İqbal Fehruz oğlu 2015-ci il noyabrın 3-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək səsvermə günü seçki dairəsinin 17, 18 və 26 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində pozuntuya yol verilməsini iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən ilkin olaraq nəzərdən keçirilərkən müəyyən edilmişdir ki, müraciət aidiyyət qaydalarının pozulmasi ilə daxil olmuşdur. Bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.3-cü maddəsinin tələbinə görə şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Müraciətlə bağlı 35 saylı Xətai üçüncü seçki dairəsinin dairə seçki komissiyasından təqdim edilmiş məlumatda bildirilir ki, səsvermə günü Ümid Partiyasının səlahiyyətli nümayəndələrinin, müşahidəçilərinin, həmçinin qeydə alınmış namizəd İ.F.Ağa-zadənin dairə və məntəqə seçki komissiyalarına qanun pozuntularına dair müraciətləri daxil olmamışdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 8.6-cı bəndinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə qeydə alınmış namizəd Ağa-zadə İqbal Fehruz oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 noyabr 2015-ci il tarixli 123 saylı müraciəti aidiyyət qaydalarının pozulması ilə daxil olduğundan araşdırılması üçün aidiyyəti üzrə 35 saylı Xətai üçüncü seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr                                                                 Məzahir Pənahov

| | |
|---|---|
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |